# Ağstafada "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş intellektual yarış keçirilmişdir



Ağstafada rayon icra hakimiyyətinin, Qazax-Tovuz Regional Təhsil İdarəsinin Ağstafa rayonu üzrə təhsil sektorunun və "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğunun birgə təşkilatçılığı ilə ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlərinin iştirakı ilə "Azərbaycanın suverenliyi və ərazi bütövlüyü" adlı intellektual yarış keçirilmişdir.

Təhsil ocaqlarında hərbi vətənpərvərlik və milli-mənəvi dəyərlərin, eyni zamanda qoruq ərazisində yerləşən abidələrin təbliği tədbirlərinə dəstək olmaq məqsədi ilə keçirilən yarış Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlamışdır. Sonra Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canından keçən şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir. 31 komandanın iştirak etdiyi 3 mərhələli yarışda komandalara Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, Azərbaycan Respublikasının Konstitusiyası, bölgələrimizin tarixi irsinə aid suallar təqdim olunmuşdur.

Gərgin və maraqlı bilik mübarizəsi şəraitində keçən yarışda Ağstafa şəhər 1 nömrəli tam orta məktəbin "Zəfər" komandası 1-ci, Dağkəsəmən kənd 1 nömrəli tam orta məktəbin "Avey" komandası 2-ci, Muğanlı kənd tam orta məktəbin "Tağlar" komandası 3-cü yerə layiq görülmüşdür. Qalib komandalar Ağstafa Rayon İcra Hakimiyyəti tərəfindən sertifikat və hədiyyələrlə təltif olunmuşlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 17 yanvar (№ 10).- S.6.